# Şuşa yenidən qurulur, ona təzə həyat, yeni nəfəs verilir



***Neçə illərdir ki, İran yolu ilə Naxçıvana – ata yurdum Culfaya gedəndə Arazboyu kəndlərimizin viran olmuş evlərini, pəncərə yerlərində tüstü izlərini, dağıldılmış dəmir yollarını seyr etmək mənə çox ağır gəlirdi. 44 günlük Vətən müharibəsi nə qədər fəxr ediləsi, qürur duyulası məqamlara yol açdı. Şükür olsun bu günə, eşq olsun Azərbaycan Prezidentinə ki, artıq xarabalığa çevrilmiş şəhər, rayon və kəndlərimizdə "ağıllı şəhər", "ağıllı kənd" layihəsi çərçivəsində abadlıq – quruculuq işlərinə start verilib. İl yarımdan çox pandemiya şəraitində yaşadığımıza baxmayaraq, bu işlərin həyata keçirilməsi məhz dövlət başçısının iradəsi, istəyi, qətiyyəti və nüfuzu sayəsində baş tutur.***

Azərbaycan bu gün bütün imkanları səfərbər edir ki, erməni işğalından azad olunan torpaqlarda çox tez bir zamanda həyat canlansın. Hazırda dövlət başçısı İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə nəhəng quruculuq işləri aparılır. Qarabağı, Şərqi Zəngəzuru, dağıdılmış şəhərləri, rayonları, kəndləri xarabaya çevrilmiş halda görmək hər bir azərbaycanlı üçün üzücüdür. 44 günlük Vətən müharibəsi dövründə əsgərlərimizə yardım aparanda, o ərazilərin necə viran edildiyini öz gözlərimlə görmüşəm. Biz fəxr etməliyik ki, Azərbaycan qurucu bir dövlətdir. Erməni işğalından azad olunmuş ərazilərin yenidən bərpası üçün həyata keçirilən layihələr bunun bariz nümunəsidir. Biz doğma torpaqlarımızı yenidən öz əvvəlki gözəlliyinə, əzəmətinə qaytaracaq, bu torpaqları əkib-becərəcəyik, yaşayacaq, yaradacağıq. Sözsüz ki, bu gün Qarabağda və Şərqi Zəngəzurda aparılan bərpa və quruculuq işləri dövlətimizin qüdrətindən, ölkə başçısının əzmindən xəbər verir.

Ulu öndər Heydər Əliyevin vaxtilə söylədiyi "Şuşasız Qarabağ, Qarabağsız isə ümumiyyətlə, Azərbaycan yoxdur" – deyimi bu gün öz təsdiqini tapır. Biz avqustun 30-da dövlət başçısı İlham Əliyevin və Birinci vitse - prezident Mehriban xanım Əliyevanın iştirakı ilə Şuşada keçirilən Vaqif Poeziya Günlərini televiziyadan qürurla seyr etdik. Şuşanı Qarabağın tacı adlandıran Prezidentimizin "Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, Vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir"– deməsi hər kəsin ürəyində Qarabağın mirvarisi olan ulu şəhərə doğmalığı, məhəbbəti bir daha artırdı. Dövlət başçımız Şuşanın təməlininin 1752-ci ildə Pənahəli xan tərəfindən qoyulduğunu xatırladaraq dedi ki, gələn il biz Şuşanın 270-ci ildönümünü təntənəli şəkildə qeyd edəcəyik: "İşğala baxmayaraq, Şuşa Azərbaycan ruhunu saxlaya bildi. Şuşaya gələn hər bir insan bunu görür. Hətta dağılmış vəziyyətdə, hətta işğal dövründə vandalizmə məruz qalmış şəkildə Şuşa öz ruhunu, öz qamətini saxlaya bildi, əyilmədi, sınmadı, bizi gözləyirdi, biz gəlməli idik və biz gəldik. Müzəffər xalq kimi gəldik".

Nə gözəl ki, bu gün Şuşa yenidən qurulur, ona istəyimizə uyğun və yaraşan yeni həyat, yeni nəfəs verilir. Təməlqoyma mərasimləri, bir sıra sosialyönümlü obyektlərin açılışı hər kəsdə ruh yüksəkliyi yaradır. Dövlət başçımızın və birinci xanımın Azərbaycan ədəbiyyatının və incəsənətinin görkəmli nümayəndələri, Milli Məclisin deputatları ilə birlikdə Molla Pənah Vaqifin büstü və məqbərəsinin, Bülbülün ev muzeyinin, Üzeyir Hacıbəylinin büstünün açılışlarında iştiraklarından onlar kimi biz də qürur duyduq, fərəhləndik, köksümüz sevincdən qabardı. Qürur duyduğum, qeyd etmək istədiyim daha bir məqam var. Yazıçılar Birliyinin sədri Anarın payızda Şuşada yazıçıların növbəti qurultayının keçirilməsinə dair Prezidentdən razılıq almasının orada iştirak edən ədəbiyyat nümayəndələrinin böyük sevincinə səbəb olması nə qədər xoş oldu.

Uzun fasilədən sonra Vaqif Poeziya Günlərinin keçirilməsinin tarixi, mədəni, ədəbi əhəmiyyəti olduqca böyükdür. Məlum tarixi dönəmdən sonra "Xarı bülbül" festivalı və Vaqif Poeziya Günlərinin keçirilməsi hər birimiz üçün bayramdır. Şuşa müqəddəs ziyarətgahdır. 39 ildən sonra Şuşaya Ali Baş Komandan, Prezident kimi gedən cənab İlham Əliyev bu tarixi şəhərimizi Azərbaycanın mədəniyyət paytaxtı elan etməklə yanaşı, həm də onu bir müqəddəs ziyarətgah olaraq da dəyərləndirdi.

İnanırıq və sevinirik ki, çox tezliklə Şuşada əvvəlkindən də gözəl yaşayış məhəllələri tikiləcək və öz doğma evlərindən didərgin düşən şuşalılar, eləcə də bütün qarabağlılar, şərqi zəngəzurlular el-obalarına qayıdacaq və burada yaşayışlarına davam edəcəklər. Qarabağda yeni dövr başlayır: abadlıq, quruculuq, yeniləşmə, müasirləşmə dövrü. Qarabağ öz tarixi, mədəniyyəti, musiqisi, qan yaddaşı ilə yenidən doğulur, dirçəlir. Şükür bu günə!

***Səlim MƏMMƏDOV,***
***Abşeron rayonu, Masazır 5 saylı məktəbin direktoru***

Xalq qəzeti .- 2021.- 3 sentyabr.- S.6.